# Milli Ordumuz ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir

**Min illərdir ki, obyektiv qanunlara zidd getməyərək yaranmış imkanlardan mühakimə və duyğunun köməyi ilə istifadə edən insan özünün təkamülündə böyük uğurlar əldə etmiş, hətta "möcüzələr" yaratmışdır. Bəzən möcüzə kimi dəyərləndirilən uğurlar isə obyektiv-subyektiv qanunların vəhdəti, uyğunluğu nəticəsində baş verir. İnsan, cəmiyyət obyektiv qanunla hesablaşaraq öz hərəkət və istəklərini onun tələblərinə uyğun qurmağa məhkumdur. İdarəetmənin əsasında dayanan da budur.**

Azərbaycanda dövlətçilik ənənələri kimi, idarəetmə mədəniyyətinin də tarixi qədimdir. Hər bir halda dövlət atributu olan ordu dövlətin təməl daşı kimi həmişə mühüm əhəmiyyət kəsb edib. Əgər Cənubi Qafqazın, o cümlədən, Azərbaycanın tarixinə nəzər salsaq, bütün dövrlərdə idarəetmənin kənardan gəldiyini görərik. (Məsələn: Sasanilər, ərəblər, monqollar və s.). Bu işdə ermənilər xüsusilə, mən deyərdim, ifrat dərəcədə fərqlənmiş və həmişə "yüksəkdə" durmuşlar. Çünki onların son 2 min il ərzində nəinki özlərinin dövləti, heç yerli idarəetmə orqanı da olmamışdır. Onlar, necə deyərlər, dal qapıdan, kənardan gələn güclərə yol tapmış, yaxınlaşa bilmiş və çağır-buyur tapşırıqlarını müvəffəqiyyətlə həyata keçirmişlər. Ancaq onlardan fərqli olaraq Azərbaycan ərazisində yaşayan insanlar IX əsrin yarısından XIX əsrin birinci yarısınadək, demək olar ki, müxtəlif formalarda (Şirvanşahlar, Sacilər, Atabəylər, Dərbəndilər sülaləsi, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və s.) ölkəni özləri idarə etmişlər. Hətta XVI-XVII əsrin birinci yarısında azərbaycanlıların yaratdığı mərkəzləşdirilmiş dövlət, Səfəvilər sülaləsi nəinki ölkəni, habelə Yaxın və Orta Şərqin digər xalqlarını da dövlət idarəçiliyi ilə (Azərbaycan imperiyası qismində) təmin edə bilmişdir.

Azərbaycan Rusiya və İran arasında bölüşdürüldükdən (qəti şəkildə 1828-ci il 10 fevral Türkmənçay müqaviləsilə ilə) sonra məmur əməyi və xidməti geniş təşəkkül tapdı. XX əsr isə tam fərqlidir. Həmin dövrdə Avropadan Rusiyaya keçən kapitalist istehsal üsulu insanın hər cür sərbəstliyini, azadlığını şüara çevirdi və idarəetmənin də bu istiqamətdə dəyişməsinin bir siyasi platforma kimi irəli sürülməsini, ortaya çıxarılmasını zəruri etdi. Odur ki, bu əsrdə kapitalist istehsal üsulunun məzmununa müvafiq olaraq ictimai-siyasi müstəvidə demokratik, hüquqi və liberal idarəetmə orqanları yarandı, ideyaları geniş miqyas aldı.

Təbii ki, tarixin bütün dövrlərində ictimai hərəkatın önündə həmişə görkəmli şəxslər dayanıb, cəmiyyətin ayrı-ayrı üzvləri öz şəxsiyyətlərini və liderlik bacarıqlarını ortaya qoyub, təsdiqləyiblər.

Cəmiyyətin ənənəvi inkişaf prosesində hər hansı fərdin-şəxsin təkamülü dəyərli bir tarix səviyyəsinə yüksələ, onun tarixi fəaliyyəti bəşəri əhəmiyyətli hadisəyə çevrilə bilər. Belə şəxslər konkret məkan və dövr üçün tarix yaratmış olurlar, tarix isə inkar oluna bilməz.

Mənim şəxsi qənaətimə görə, XX əsrdə Azərbaycanda siyasi lider fəaliyyəti beş dəfə baş vermişdir. Demək istəyirəm ki, idarəetmə beş siyasi mərhələdən keçmişdir. Birinci mərhələnin önündə biz Məmmədəmin Rəsulzadəni, ikinci mərhələnin önündə Nəriman Nərimanovu, üçüncü mərhələnin önündə Mir Cəfər Bağırovu, dördüncü mərhələnin önündə İmam Mustafayevi və beşinci mərhələnin önündə ümummilli lider Heydər Əliyevi göstərə bilərik. Bu mərhələlərin hər birində adlarını çəkdiyimiz ictimai-siyasi xadimlər öz xalqı və ölkəsi üçün, öz təşəbbüsü və bacarıqları ilə mümkün olan nə isə edə bilmişlər. Onlar beynəlxalq, regional və milli əks qüvvələrin təsirinə baxmayaraq siyasi yayınma və diplomatiya sayəsində xalqın taleyüklü problemlərinin həllində, ölkənin müqəddəratında tarixi uğurlar qazanmışdılar. Heç şübhəsiz ki, belə idarəetmələr zamanı həmin şəxslər kifayət qədər müstəqil, azad, siyasi imkanlara malik olmamışlar. Bu, yalnız 1993-2003-cü illərdə Heydər Əliyevin yenicə yaranmış, yəni müstəqil dövlətçiliyi bərpa olunmuş Şimali Azərbaycanın idarəçiliyində mümkün olmuşdur.

Ümummilli lider XX əsrin 70-ci illərindən Azərbaycanda bir şəxs qismində yer aldı, onun rəhbərinə çevrildi. Müstəqil Azərbaycan Respublikasının tarixinə lider kimi daxil oldu.

2003-cü ildən bu yana Azərbaycan idarəçiliyi özünün müasirliyi, müstəqilliyi, demokratikliyi və beynəlmiləlçiliyi ilə zəngin bir siyasətlə təmin olunmuşdur. Fikrimcə, bəhs etdiyimiz siyasətin formalaşmasında iti zəka, qətiyyətli qərar və cəsarətli addımlar diqqəti cəlb edir. Bu üç kriteriya ən çətin regional və beynəlxalq münasibətlər şəbəkəsi içərisində həyata keçirilərkən özünün tam gücü ilə işləməsə də, tariximizin bu mərhələsi istər sosial-iqtisadi, istər siyasi və mədəni, istərsə də mənəvi-psixoloji durum baxımından Şimali Azərbaycanda möcüzələr yaratmağa müvəffəq olmuşdur.

Azərbaycan xalqının son 20 il ərzində keçdiyi yolda uğurlu və eləcə də, kifayət qədər uğurlu olmayan tarixinə nəzər salsaq görərik ki, ümumdünya tarixində olduğu kimi, bizdə də cəmiyyət və lider fəaliyyəti, demək olar, eyni vaxtda meydana gəlmiş, davam edir və davam edəcəkdir. Biz XX əsrin Azərbaycan cəmiyyətində lider fəaliyyəti və tarixi barədə qısa danışdıq, lakin XXI əsr bu baxımdan həm müasirliyi, coşqun inkişafı, həm də kifayət qədər milli və beynəlxalq səviyyəli lider fəaliyyəti ilə səciyyəvidir. Bu cəhətdən xalqımızın, ölkəmizin və vətəndaşlarımızın bəxti gətirmişdir. Belə ki, 2003-cü ildən bu siyasi funksiya bizim gənc, lakin siyasət aləmində bişmiş Prezidentimiz İlham Əliyevin üzərinə düşmüşdür. Bu illər ərzində istər sosial-iqtisadi, istər siyasi və mədəni inkişaf olsun, fərqi yoxdur, Azərbaycan keçmiş sovet respublikaları içərisində özünün davamlı, dinamik, sürətli və müəyyən məqamlarda kənardan baxanlar üçün möcüzəli görünən bir inkişafın şahidiyik. Bütün bunlar isə Azərbaycanın dövlət siyasəti və onun başçısının bacarıqlı, istedadlı siyasətçi olması faktını bir daha təsdiqləyir.

XX əsrin son 30 ili aktual hadisələrlə zəngindir. Həmin hadisələrdən biri Azərbaycan Sovet Respublikası rəhbərliyinin daha da möhkəmləndirilməsidir. Bu isə həmin dövrdə Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi ilə bağlıdır. Ulu öndər hələ Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri işlədiyi dövrdə SSRİ idarəetmə sistemində özünü büruzə verən "çatları" aydın görürdü. Azərbaycanın müstəqil olacağına inamı artır və ittifaq hökumətini duyuq salmamaq şərtilə strateji hərəkət xəttini müəyyənləşdirməyə çalışırdı.

Rus imperiyası dövründə azərbaycanlı gənclər ordu sıralarına çağırılmırdı, sovet dövründə əsgəri xidmətdə olanlar hərbi texnikadan uzaq tutulurdu. Elə azərbaycanlılar özləri də övladlarını sərt hərbi təlimlər olan sahələrdə xidmət etməyə qoymurdular.

Ümummilli lider öz fəaliyyətində gələcək Azərbaycanın idarəetmə kadrlarının hazırlanması məsələsini önə çəkdi. İstedadlı gənclər SSRİnin ali məktəblərində oxumağa göndərilirdi. O, gözəl bilirdi ki, o dövrdə Azərbaycanın öz ordusunu yaratmaq mümkün deyil. Odur ki, savadlı, peşəkar zabitlərin hazırlığı üçün yollar axtarırdı. Həmin dövrdə C.Naxçıvanski adına hərbi məktəbin yaradılması bu yolda atılan ilk addım oldu.

1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev dövlətçiliyin qorunub saxlanması ilə yanaşı, ölkədə ordu quruculuğu kimi ağır vəzifəni öz üzərinə götürdü. Qısa müddətdə daxili ictimai-siyasi sabitlik təmin olundu, ölkənin bütün maddi-siyasi resurs və potensialı Ermənistanın işğalçı silahlı qüvvələrinə qarşı müqavimətin təşkilinə yönəldildi. Bu gün isə ölkə başçısı, silahlı qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ümummilli liderimizin bu sahədəki işini uğurla davam etdirir. Ordumuzun beynəlxalq standartlar səviyyəsində inkişafı üçün zəruri adddımlar atılır. Ölkə başçısı cənab İlham Əliyev çıxışlarının birində demişdir: "Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün bütün hərbi qurumlar vahid komanda altında birləşib və Ali Baş Komandanın əmrləri ilə hərəkət edirlər. Lazım gələn anda bütün hərbi qurumlar bir yumruq kimi hərəkət edəcəklər və Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəklər..."

Bu il aprelin 2-dən 5-dək Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlarımızın bütün cəbhəboyu ordumuza qarşı hücumu zamanı Azərbaycan ordusu nəyə qadir olduğunu nümayiş etdirdi. Ordumuzun igid əsgərləri ermənilərin çoxlu sayda ağır texnikasını, eləcə də yüzlərlə canlı qüvvəsini məhv etməklə kifayətlənməyib, strateji yüksəklikləri də ələ keçirdi.

Mən hadisələrdən öncə ölkə başçısının bir sıra beynəlxalq əhəmiyyətli toplantılarda iştirakı, burada keçirdiyi görüşlərin əhəmiyyətini də xüsusi qeyd etmək istərdim. Bütün bunlar Azərbaycan dövlətinin artan nüfuzunun göstəricisidir.

Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında torpaqlarımızın tezliklə düşməndən azad ediləcəyini qətiyyətlə söyləmişdir. Çünki bizim bu missiyanı yerinə yetirməyə qadir ordumuz var. Ordu varsa, Vətən də var, dövlət də...

- "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var." Ölkə başçısının inamla söylədiyi bu fikirlər bu gün artıq öz təsdiqini tapıb. Cəbhə xəttində ermənilərin təxribatının qarşısını müvəffəqiyyətlə alan Milli ordumuz bunu bütün dünyaya nümayiş etdirdi.

**Məmmədəli PAŞAYEV,**
**professor.**